"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

AZƏRİNŞAAT

**PRES RELİZ**

# "Azərinşaatservis" MMC Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin Gürcüstan hissəsini inşa edəcək.

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2007/11/16*

16 noyabr 2007-ci ildə Gürcüstanın paytaxtı Tbilsi şəhərində Azərbaycan şirkəti "Azərinşaatservis" MMC ilə "Marabda-Kartsaxi Dəmiryolu" MMC arasında müqavilə imzalanıb. Müqaviləyə əsasən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində Gürcüstan ərazisindən keçən Axalkalaki-Kartsaki-Türkiyə sərhədi dəmir yolunun tikinti hüququ "Azərinşaatservis" MMC-yə verilib.

Qeyd etmək lazımdır ki "Azərinşaatservis" MMC 29 oktyabrda Tbilisidə Bakı-Tiflis-Qars dəmir yolunun Gürcüstan hissəsində tikinti işlərinin həyata keçirilməsi ilə bağlı elan edilən tenderin qalibi elan olunmuşdu. Tenderdə Azərbaycan şirkəti ilə yanaşı Rusiya, Ukrayna, Türkiyə və Gürcüstan şirkətləri də iştirak edirdi.

Azərbaycan Dövlət Neft fondunun maliyyə dəstəyi və Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin sifarışı ilə çəkiləcək olan bu dəmir yolu layihəsinin ümumi dəyəri müqaviləyə əsasən 79 445 612 ABŞ dolları olaraq müəyyən edilib. Gürcüstan ərazisində tikiləcək olan bu dəmir yolunun uzunluğu 25,65 km-dir.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 2082087, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**